AZƏRBAYCAN DÖVLƏT RƏQS ANSAMBLININ TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

İMANOVA Günay Əflan qızı
Bakı Xoreoqrafiya Akademiyasının magistrantı
Ünvan: Salatın Əsgərova 347, Nəsimi
E-mail: gimanova222002@icloud.com
ORCİD: 0009-0000-6633-7392

Elmi rəhbər: ***Şəhla ƏLİYEVA***
BXA-nın "Humanitar fənlər" kafedrasının müdiri,
sənətşünaslıq üzrə fəlsəfə doktoru,
BXA-nın professoru

DOI: 10.62440/AMK2026-2.s.35-48

Xülasə: *Azərbaycan xalqının çoxəsrlik tarixini, mədəniyyətini və milli-mənəvi dəyərlərini özündə ehtiva edən rəqs sənəti, folklorumuzun qədim, fundamental qollarından birini təşkil edir. Mədəni irsimizin ayrılmaz tərkib hissəsi olan bu sənət növü, tarixi inkişaf prosesində xalqın etnoqrafik xüsusiyyətləri ilə vəhdət təşkil edərək yüksək bədii-estetik səviyyəyə çatmışdır. Milli rəqs sənətimizin keyfiyyət göstəricilərindən, ifa tərzindən, temp və məzmun xüsusiyyətlərindən asılı olmayaraq, onun fundamental bir qayəsi mövcuddur: folklorumuzu, çoxəsrlik adət-ənənələrimizi və mədəni irsimizin ilkinliyini qorumaq şərtilə səhnədə təcəssüm etdirmək. Tarixi yaddaşın itməməsi və gələcək nəsillərə ötürülməsi üçün rəqs sənətinin təbliği mütləq xarakter daşıyır. Çünki folklor xalqın yaşam tərzini, mənəviyyatını və bütövlüyünü əks etdirən güzgüdür, o, fərdin şəxsiyyət kimi formalaşmasına və milli kimliyin qorunmasına birbaşa təkan verir. Folklor sadəcə xalq yaradıcılığının məhsulu deyil, o, eyni zamanda millətin kollektiv intellektinin və bədii təfəkkürünün nəticəsidir.*

Açar sözlər: *rəqs, mədəniyyət, irs, ansambl, rəqqas, ifa*

ЗАРОЖДЕНИЕ И РАЗВИТИЕ АЗЕРБАЙДЖАНСКОГО ГОСУДАРСТВЕННОГО АНСАМБЛЯ ТАНЦА

ИМАНОВА Гюнай Афлан
Магистрант Бакинской Хореографической Академии

Аннотация: *Искусство танца, воплощающее в себе многовековую историю, культуру и национально-духовные ценности Азербайджанского народа, является одной из древнейших и фундаментальных ветвей нашего фольклора. Являясь*

неотъемлемой частью культурного наследия, данный вид искусства в процессе исторического развития достиг высокого художественно-эстетического уровня, находясь в единстве с этнографическими особенностями народа. Вне зависимости от качественных показателей, стиля исполнения, темпа и содержательных характеристик нашего национального танцевального искусства, оно преследует фундаментальную цель: воплощение на сцене фольклора, многовековых традиций и аутентичности нашего культурного наследия. Пропаганда танцевального искусства носит обязательный характер для сохранения исторической памяти и её передачи будущим поколениям. Поскольку фольклор является зеркалом, отражающим образ жизни, духовность и целостность народа, он дает прямой импульс формированию личности и сохранению национальной идентичности. Фольклор – это не просто продукт народного творчества, это также результат коллективного интеллекта и художественного мышления нации.

Ключевые слова: *танец, культура, наследие, ансамбль, танцовщик, исполнение*

THE ESTABLISHMENT AND SUBSEQUENT ACTIVITIES OF THE AZERBAIJAN STATE DANCE ENSEMBLE

Imanova Gunay Aflan
Master’s Student at the Baku Academy of Choreography

Abstract: *The art of dance, which embodies the centuries-old history, culture, and national-spiritual values of the Azerbaijani people, constitutes one of the most ancient and fundamental branches of our folklore. As an integral part of our cultural heritage, this art form has evolved through historical processes in harmony with the ethnographic characteristics of the nation, reaching a high level of artistic and aesthetic refinement. Regardless of the quality indicators, performance style, tempo, or thematic features of our national dance art, it possesses a fundamental objective: to manifest our folklore, centuries-old traditions, and the authenticity of our cultural heritage on stage. The promotion of dance art is of imperative character for the preservation of historical memory and its transmission to future generations. Since folklore is a mirror reflecting the lifestyle, spirituality, and integrity of a nation, it directly contributes to the formation of individual personality and the preservation of national identity. Folklore is not merely a product of folk creativity; it is also the result of the collective intellect and artistic perception of the nation.*

Keywords: *dance, culture, heritage, ensemble, dancer, performance*

Rəyçilər:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, BXA-nın professoru Şəhla Əliyeva;
BXA-nın dosenti, Əməkdar artist Sənan Hüseynli.

Xalq rəqslərinin bu günümüzə qədər gəlib çatmasının əsas səbəbi onların el şənliklərində, bayram və mərasimlərdə yaşadılmasıdır. Lakin uzun müddət qeyri-peşəkar müstəvidə, yalnız yaddaşlarda qorunaraq ötürülən bu irsi hazır xammal kimi qəbul edib peşəkar səhnəyə ötürmək məhz yaradıcı kollektivlərin üzərinə

düşən məsuliyyətli bir missiyadır. Peşəkar xoreoqrafik kollektivlər xalq irsini dərin elmi və bədii təhlillər əsasında mənimsəməli, bu zəmin üzərində yeni proqramlar, repertuar və layihələri hazırlamalıdırlar. Yalnız bu yanaşma ilə folklorun düzgün təbliğatını aparmaq və milli rəqs sənətinin davamlı inkişafını təmin etmək mümkündür. Azərbaycan Dövlət Rəqs Ansamblının timsalında milli xoreoqrafiya irsimizin folklor qaynaqlarından peşəkar səhnə müstəvisinə keçid mərhələlərini göstərmək, ansamblın Azərbaycan rəqs sənətinin qorunması, təbliği və müasir inkişafındakı rolunu elmi-nəzəri baxımdan işıqlandırmaq bu tədqiqatın əsas məqsədidir.

Xalq rəqslərimizin qeyri-peşəkar müstəvidən (el şənlikləri və mərasimlərdən) çıxaraq dövlət səviyyəli peşəkar ansambl formatına keçməsi, milli rəqs sənətinin təkamülündə mühüm mərhələdir. Folklorun xalqın yaşam tərzini və milli kimliyini əks etdirən bir güzgü olması, onun elmi əsaslarla tədqiq edilməsini və gələcək nəsillərə ötürülməsini şərtləndirir. Azərbaycan Dövlət Rəqs Ansamblının fəaliyyəti timsalında xalq rəqslərinin araşdırılması, təhlili xoreoqrafiya sənəti üçün xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, Azərbaycan Dövlət Rəqs Ansamblının 1970-ci illərdən bu günə qədər olan inkişaf yolunun elmi-nəzəri təhlili milli xoreoqrafiya sənətinin tarixi-mədəni əhəmiyyətini dərk etmək üçün aktual məsələdir.

Qoyulan problemin əhəmiyyəti ilk növbədə, Azərbaycan xoreoqrafiya sənətinin qeyri-peşəkar folklor müstəvisindən peşəkar akademik səhnəyə keçid prosesinin tarixi-nəzəri baxımdan sistemləşdirilməsi ilə bağlıdır. Azərbaycan Dövlət Rəqs Ansamblının fəaliyyətinin təhlili təkcə bir kollektivin xronologiyasını deyil, eyni zamanda milli rəqs irsimizin qorunması, zənginləşdirilməsi və beynəlxalq arenada təbliği mexanizmlərini müəyyən etmək üçün elmi-praktiki dəyərə malikdir. Ansamblın təcrübəsinin dərindən öyrənilməsi milli-mənəvi dəyərlərimizin qorunması və xoreoqrafiya sənətinin gələcək nəsillərə daha dolğun şəkildə ötürülməsi baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan Dövlət Rəqs Ansamblının yaranma prosesi, formalaşma mərhələləri və müxtəlif dövrlərdəki fəaliyyətinin ardıcıl olaraq qeyd edilməsi, onun inkişaf dinamikasının tarixi kontekstdə şərh edilməsi, ansamblın fəaliyyətinin tək bir kollektivin fəaliyyəti kimi deyil, Azərbaycan milli rəqs mədəniyyətinin ayrılmaz hissəsi kimi nəzərdən keçirilməsi, müxtəlif yaradıcılıq dövrlərinin xoreoqrafik repertuarı, səhnələşdirmə prinsipləri və ifaçılıq üslubunun müqayisə edilməsi, sənətkarlıq ənənələrinin göstərilməsi tədqiqat işinin metodologiyasını təşkil edir.

Tədqiqat işində Azərbaycan xoreoqrafiya sənətinin ansamblın fonunda təkamülünü və Azərbaycan Dövlət Rəqs Ansamblının fəaliyyətini sistemli şəkildə öyrənmək üçün bioqrafik, tarixi, xronoloji, mədəni, etnoqrafik metodlara müraciət edilmişdir. Tədqiqat zəngin faktoloji materialın nəzəri ümumiləşdirilməsi və Azərbaycan xoreoqrafiya sənətinin inkişaf tarixinin göstərilməsi baxımından elmi dəyərə malikdir.

XX əsrin 70-ci illəri Azərbaycan mədəniyyətinin intibah mərhələsi kimi qiymətləndirilir. Bu dövrün əsas xüsusiyyəti milli musiqi və xoreoqrafiya sənətinin sistemli şəkildə inkişaf etdirilməsinin, habelə onların təbliğinin dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilməsidir. Məhz bu mədəni zərurətin nəticəsi olaraq, 1970-ci ildə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının nəzdində peşəkar kollektiv Azərbaycan Dövlət Rəqs Ansamblı təsis edildi. Yarandığı gündən etibarən milli rəqs sənətimizin qorunması və beynəlxalq müstəvidə tanıdılmasında müstəsna rol oynayan bu ansambl, ötən onilliklər ərzində zəngin bir yaradıcılıq yolu keçmişdir. Dünyanın müxtəlif ölkələrində nümayiş olunan qastrol səfərləri və möhtəşəm konsert proqramları vasitəsilə əcnəbi tamaşaçılar Azərbaycan rəqslərinin estetik incəliyini, plastik zənginliyini və daxili dinamikasını kəşf edirlər. Ansamblın yüksək peşəkarlıqla təqdim etdiyi hər bir ifa, milli mədəniyyətimizin vizual təcəssümü olmaqla yanaşı, həm də xalqımızın tarixi köklərinə və mənəvi irsinə bələdçilik edən mühüm bir vasitədir.

Azərbaycan Dövlət Rəqs Ansamblı fəaliyyətinin ilkin mərhələsində Leyla Vəkilova və Əlibaba Abdullayev kimi görkəmli sənətkarların peşəkar rəhbərliyi altında təşəkkül tapmışdır. Məhz bu korifey sənətkarların gərgin yaradıcılıq axtarışları və pedaqoji fəaliyyəti sayəsində kollektivin bədii təməli möhkəm qoyulmuş, repertuarı milli koloriti ilə seçilən zəngin nümunələrlə formalaşmışdır. Ansamblın repertuar siyasəti iki əsas istiqamət üzərində qurulmuşdur.

– Milli folklor irsi – Azərbaycan xalq rəqslərinin qədim ənənələrinin qorunması və səhnə təcəssümü.

– Multikultural əlaqələr – milli rəqslərlə yanaşı, digər dünya xalqlarının rəqs nümunələrinin peşəkar ifası.

Kollektivin bədii uğurlarının əsasında həm də Azərbaycan bəstəkarlıq məktəbinin inciləri dayanır. Repertuarda müxtəlif illər ərzində Üzeyir Hacıbəyli, Səid Rüstəmov, Tofiq Quliyev, Fikrət Əmirov, Cahangir Cahangirov, Telman Hacıyev, Vasif Adıgözəlov, Eldar Mansurov, Aqşin Əlizadə və Cavanşir Quliyev kimi bəstəkarların əsərlərindən istifadə olunması rəqs nömrələrinin musiqi keyfiyyətini və bədii dəyərini yüksəldən əsas amillərdəndir.

Azərbaycan Dövlət Rəqs Ansamblı 10 noyabr 1970-ci ildə görkəmli bəstəkar Rauf Hacıyevin təşəbbüsü ilə fəaliyyətə başlamışdır. Kollektivin kadr potensialı əsasən o zamankı Bakı Xoreoqrafiya Məktəbinin (hazırkı Bakı Xoreoqrafiya Akademiyası) məzunları və müxtəlif peşəkar kollektivlərin istedadlı ifaçıları hesabına formalaşmışdır. Ansamblın ilk repertuar strategiyasının müəyyənləşməsində və bədii simasının formalaşmasında Əlibaba Abdullayevin əvəzsiz xidmətləri olmuşdur. Onun quruluş verdiyi “Toy”, “Bahar” və “Qaval” kimi ilk rəqs nömrələri kollektivin sənət xəttinin əsasını qoymuşdur. 70-ci illərdə ansamblın yaradıcılıq heyətində Azərbaycan xoreoqrafiya sənətinin gələcək simaları olacaq parlaq solistlər çıxış edirdi. Onların sırasında Afaq Məlikova, Qorxmaz Qurbanov, Kamil Dadaşov, Rafiq Əzizov, Nəriman Kərimov, Tamilla Eldarova, Alim

Zeynalov kimi sənətkarların adlarını xüsusi qeyd etmək olar. 1972-ci ildə Ə.Abdullayev rəsmi olaraq Azərbaycan Dövlət Rəqs Ansamblına bədii rəhbər təyin edildi. Bu təyinatdan qısa müddət sonra ansamblın fəaliyyəti ölkə hüdudlarını aşmağa başladı. 1973-cü ildə Avstriyada reallaşan ilk böyük xarici səfər kollektivin beynəlxalq səviyyədə tanınması üçün mühüm platforma oldu və Avropa tamaşaçısı tərəfindən böyük rəğbətlə qarşılandı.

Azərbaycan Dövlət Rəqs Ansamblının fəaliyyəti illərində elə bir dövr var ki, həmin illər ansamblın çiçəklənmə, inkişafının yüksək zirvəyə çatdığı dönəmdir. Təbii ki, bu dövr məhz, əvəzsiz sənətkar, görkəmli rəqs ustası Ə.Abdullayevin ansambldakı fəaliyyət illəri idi. O, milli xoreoqrafiya tariximizdə peşəkar rəqs məktəbinin banisi kimi xüsusi yer tutur. Onun fəaliyyəti Azərbaycan Dövlət Rəqs Ansamblı təsis olunmazdan hələ onilliklər öncə, müxtəlif kollektivlərdə, xüsusilə də Dövlət Mahnı və Rəqs Ansamblında başlamışdır. Sənətkarın əzmkarlığı və gərgin əməyi nəticəsində Azərbaycan xalq rəqsləri etnoqrafik folklor səviyyəsindən yüksələrək akademik sənət statusu qazanmış və təkamül etmişdir.

Onun haqqında deyilən bu fikirlər onun necə nadir istedada malik olmasını bir daha sübut edir: "*Ə.Abdullayev tamaşaçılar arasında çox populyar idi. Onun sənəti dahi bəstəkarımız Üzeyir Hacıbəyovun rəhbərliyi altında və dəstəyi ilə püxtələşmiş, kamilləşmiş və yaradıcılıq zirvəsinə çatmışdır. Əlibaba müəllimin qızı Elmira xanım yazır ki, atam S.Ələsgərov, T.Quliyev, C.Cahangirov, S.Hacıbəyov və başqa bəstəkarlarla sıx əlaqədə işləmiş, qədim xalq rəqslərini toplamış, onların oynaq ritmlərindən istifadə edib, yenidən quruluş vermişdir. Onun sənəti xalqa yaxın, quruluş verdiyi rəqslərin isə hamısı mənalı, rəngarəng olmuşdur: "Çobanlar", "Bənövşə", "Bulaq başı", "Bahar", "Ay gözəl", "Qazağı", "Məzəli rəqs", "Qaytağı", "Gəlin tərifi", "Nağaraçılar" rəqsləri və s. Ə.Abdullayev öz üzərində daim çalışır, sənətinə aid çoxlu ədəbiyyat oxuyurdu. Gecələr kağız üzərində rəqs qurar və müxtəlif eskizlər çəkirdi. Əvvəl rəqsin məzmununu, musiqisini açır, sonra onlara aid rəqs yaradırdı. Onun gözəl əl qabiliyyəti vardı. O, asta-asta zümzümə edərək rəqsin eskizlərini çəkirdi. Ertəsi günü çəkdiyi eskizləri filarmoniyada rəqqaslara göstərir, eskizlər əsasında rəqsi qurur, onlarla məşq edirdi. İş prosesində nəyi isə saxlayır, nəyi isə lazımsız bilib, üstündən xətt çəkirdi*" (Kazımzadə, 2010: 10).

Məhz Ə. Abdullayevin yaradıcılığı sayəsində Azərbaycanın xoreoqrafiya tarixində yeni bir məktəb, milli dəyərlərə, tarixi köklərə və irsə söykənən sənət sistemi formalaşmışdır. Qədim xalq rəqs musiqisinin toplanması, araşdırılması və onların üzərində orijinal quruluşun verilməsi, xalq rəqslərinin ifa texnikasının sistemləşdirilməsi və səhnə estetikasının yaradılması bu məktəbin əsas prinsiplərindən idi. Məktəbin davamçıları dahi sənətkarın qoyduğu ənənələri mənimsəyərək milli rəqsi müasir tələblər səviyyəsində inkişaf etdirmişlər.

O, görkəmli bəstəkarlarla sıx əməkdaşlıq edərək, rəqsin musiqi dramaturgiyasının qurulmasında birbaşa iştirak edirdi. Sənətkar rəqs quruluşuna yalnız hə-

rəkət kimi deyil, bütöv bir vizual əsər kimi yanaşırdı. O, gələcək rəqslərin xoreoqrafik eskizlərini özü çəkməklə yanaşı, səhnə geyimlərinin parçasına, rəng palitrasına və atributların hər birinə (milli bəzəklər, papaqlar, kəmərlər və s.) xüsusi diqqət yetirirdi. Bu dərindən işlənmiş yanaşma sayəsində Ə.Abdullayevin quruluşunda millilik təkcə hərəkətlərdə deyil, həm də rəqsin ümumi vizual və musiqi fəlsəfəsində özünü bariz şəkildə büruzə verirdi.

1970-ci illərin əvvəllərində Azərbaycan Dövlət Filarmoniyasının nəzdində ikinci peşəkar rəqs kollektivinin Azərbaycan Dövlət Rəqs Ansamblının yaradılması gündəmə gəldiyi vaxtdan ilk olaraq Əlibaba Abdullayev nəzərdə tutulur. Onun o dövrə qədər zəngin yaradıcılıq təcrübəsi, xalq rəqslərinin səhnə təcəssümü sahəsindəki fundamentallığı və sənət aləmində sarsılmaz nüfuzu bu seçimi şərtləndirən əsas amillər idi. Ə.Abdullayev ansamblın yaradılması prosesinə sadəcə bir inzibatçı kimi deyil, genişmiqyaslı bir xoreoqraf-islahatçı kimi yanaşmışdır. Məhz onun rəhbərliyi və gərgin əməyi sayəsində Azərbaycan Dövlət Rəqs Ansamblı qısa müddət ərzində özünəməxsus dəst-xətti olan beynəlxalq arenada ölkəni təmsil etməyə qadir bir kollektivə çevrilmişdir. Bu illər ərzində kollektivin yenicə yaranmasına baxmayaraq, qısa zamanda rəqqasların səhnə ifası zənginləşir.



Ə. Abdullayevin tələbələrlə birgə fotoşəkilləri. 1971-ci il. İnv. 188, op. 2, sax.vah. 26.

Azərbaycan Dövlət Rəqs Ansamblının inkişafının növbəti mərhələsində repertuarın həm klassika, həm də digər xalqların rəqsləri ilə zənginləşdirilməsi pro-

sesi sürətlənmişdir. Bu dövrdə Xalq artisti Xumar Zülfüqarovanın Üzeyir Hacıbəylinin "Koroğlu" operasından hazırladığı "Qızların rəqsi" kollektivin repertuarına daxil edilmişdi. X.Zülfüqarovanın bu quruluşu Azərbaycan xalq rəqslərinin zərifliyini və estetikasını akademik səhnəyə daşıyan ən uğurlu nümunələrdən biri sayılır.

1974-cü ildə kollektivin bədii üfüqlərini genişləndirmək məqsədilə Dağıstanın məşhur "Ləzginka" Rəqs Ansamblının bədii rəhbəri, SSRİ Xalq artisti Tanxo İzrailov Bakıya dəvət edildi. Onun rəhbərliyi ilə hazırlanan yeni və dolğun konsert proqramı ansambla beynəlxalq müstəviyə uyğun dinamika və peşəkarlıq gətirdi. Bu proqramda yer alan nümunələr janr müxtəlifliyi ilə seçilirdi: "Azərbaycan süitası", "Zorxana", "Yallı", "Durnalar", "Nağara ilə rəqs", "Rəqiblər", "İncəlik", "Şənlik", "Dəcəl uşaqlar", "Qılınclarla rəqs", Rus rəqsi "Karusel" və s.

70-ci illərin sonunda Azərbaycan Dövlət Rəqs Ansamblı gənc kollektiv olmasına baxmayaraq, qısa müddətdə özünü peşəkar sənət ocağı kimi təsdiqləyə bildi. Kollektivin bu uğurlu başlanğıcının və əsas yükünün daşıyıcıları heç şübhəsiz ki, Ə.Abdullayev və L.Vəkilova kimi korifey sənətkarlar olmuşdur. Onların rəhbərliyi altında qoyulan təməl, ansamblın həm milli ruhunu qoruyub saxlamasına, həm də müasir xoreoqrafiya tələblərinə cavab verməsinə şərait yaratmışdır. Danılmaz faktdır ki, Azərbaycan xoreoqrafiya sənətinin inkişafında Qəmər Almaszadə məktəbinin rolu əvəzsizdir. Bu məktəbin ən görkəmli nümayəndələrindən biri Leyla Vəkilova, Qəmər xanımın sənət sirlərinə yiyələnərək, sonradan özü də ustad balet ifaçısı və pedaqoq kimi tanınmışdır.

SSRİ Xalq artisti L.Vəkilova 1943-cü ildə Bakı Xoreoqrafiya Məktəbindən məzun olmuş, 1945-1946-cı illərdə Moskva Akademik Xoreoqrafiya Məktəbində təkmilləşmə kursu keçərək akademik biliklərini dərinləşdirmişdi. Azərbaycan Dövlət Opera və Balet Teatrının prima-balerinası kimi çıxış edərək, yaratdığı bənzərsiz obrazlarla özünəməxsus ifa üslubu formalaşdırmışdı. L.Vəkilova təkcə səhnə ustası deyil, həm də gələcək nəsillərin yetişməsində böyük əməyi olan bir mütəxəssis, pedaqoq idi. Bakı Xoreoqrafiya Məktəbində 1953-cü ildən etibarən pedaqoji fəaliyyətə başlamış, 1990-1999-cu illərdə isə məktəbin bədii rəhbəri vəzifəsini icra etmişdir. 1976-1982-ci illərdə Azərbaycan Dövlət Rəqs Ansamblının rəhbəri kimi fəaliyyət göstərmişdir. Onun rəhbərliyi dövründə ansamblın repertuarı özünün quruluş verdiyi "Gənclik" xoreoqrafik süitası ilə zənginləşdi. Onun həm səhnədəki ifa tərzi, həm də pedaqoji metodikası yüksək estetikası və texniki mükəmməlliyi ilə seçilirdi. Qazandığı zəngin təcrübəni tələbələrinə aşılayaraq, Azərbaycan xoreoqrafiyasının akademik ənənələrini yaşatmışdır.

Azərbaycan Dövlət Rəqs Ansamblı 1970-ci illərin sonunda və 80-ci illərin əvvəllərində yaradıcılığını daha da genişləndirərək beynəlxalq miqyaslı uğurlara imza atdı. Bu dövrün ən parlaq nailiyyətlərindən biri kollektivin 1979-cu ildə Tunisdə keçirilən nüfuzlu Karfagen festivalındakı iştirakıdır. Dünyanın 24 ölkəsindən qatılan peşəkar kollektivlər arasında yüksək sənətkarlıq nümayiş etdirən ansambl, festivalın qızıl medalına layiq görüldü. Bu qələbə Azərbaycan xoreoqrafiya sənəti-

nin dünya miqyasında tanınmasında və milli rəqs irsimizin beynəlxalq standartlara cavab verən peşəkar sənət növü kimi göstərilməsində həlledici rol oynadı.

Ansamblın repertuarının zənginləşməsində görkəmli balet ustaları Rəfiqə Axundova və Maqsud Məmmədovun fəaliyyəti xüsusi qeyd edilməlidir. SSRİ-nin yaranmasının 60 illik yubileyi münasibətilə Moskvada keçirilən təntənəli konsert proqramı üçün bu iki sənətkarın quruluş verdiyi “Qazağı” rəqsi xoreoqrafik həlli və texniki mürəkkəbliyi ilə seçilirdi. Bu quruluş Azərbaycan kişi rəqslərinin qəhrəmanlıq ruhunu, çevikliyini və plastik zənginliyini akademik səhnə formatında ən yüksək səviyyədə təmsil etmişdir. “Qazağı” rəqsi mənşə etibarilə Azərbaycanın qərb bölgəsində yerləşən Qazax rayonuna məxsusdur. Rəqs haqqında qeyd olunur ki, “*Ən qədim Azərbaycan rəqslərindən biridir. Adına əsasən bu qənaətə gəlmək olur ki, rəqs Qazax mahalında yaranmışdır. Lakin Azərbaycanın əksər bölgələrində, xüsusilə Bakıda yayılmış rəqsdir. “Qazaxı” olduqca yeyin və cəld ifa olunan rəqsdir. Bu rəqs tək və məharətli ifa bacaran dəstə tərəfindən oynanılır. Rəqsin düzümündə rəngarəng və texniki hərəkətlər çoxdur. Məişətdə bu rəqs solo ifa olunur. Oynayanların hər biri öz qabiliyyətini, rəqsdə nəyə qadir olduğunu göstərməyə çalışır. “Qazaxı”nın ifasında kişi rəqslərinin çoxunda olduğu kimi, hökmən sərrast hərəkətlər, daxili qüvvənin əzəməti tələb olunur*” (Həsənov, 1983: 32-33). Lokal folklor nümunəsi kimi yaransa da, zamanla paytaxt Bakı başqa olmaqla, ölkənin bütün bölgələrində geniş yayılmış, dövlət tədbirlərinin və akademik səhnələrin ayrılmaz hissəsinə çevrilmişdir. “Qazağı” rəqsi xoreoqrafik quruluşuna görə yüksək texniki hazırlıq tələb edir. Onun əsas xüsusiyyəti – cəld, çevik, emosional cəhətdən həyəcanlı və yüksək dinamikalı hərəkətlərin mövcudluğudur. Səlis və eyni zamanda icrası çətin olan elementlər bu rəqsdə vəhdət təşkil edir. Onu da qeyd etmək lazımdır ki, rəqsin folklor variantından peşəkar səhnə formatına keçməsində Əlibaba Abdullayevin müstəsna xidməti olmuşdur. O, ilk dəfə olaraq bu rəqsə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblı üçün sistemli quruluş vermişdir. Bu peşəkar quruluşun beynəlxalq arenada ilk böyük sınağı 1958-ci ildə Çin Xalq Respublikasında keçirilən qastrol səfəri zamanı baş tutmuşdur. Mahnı və Rəqs Ansamblının təqdimatında “Qazağı” rəqsi orada böyük rəğbətlə qarşılanaraq, Azərbaycanın rəqsinin gücünü dünyaya nümayiş etdirmişdi.

1980-ci illərdə Azərbaycan Dövlət Rəqs Ansamblı öz repertuarını beynəlxalq və regionlararası əməkdaşlıq çərçivəsində daha da zənginləşdirdi. Bu məqsədlə kollektivə mütəmadi olaraq qonşu respublikaların tanınmış sənətkarları dəvət olunurdu. Onların sırasında Özbəkistan SSR Xalq artisti, görkəmli rəqqasə və xoreoqraf Qaliya İzmaylovanın dəvət edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu cür yaradıcılıq mübadilələri ansamblın ifa üslubuna yeni şərq rəqs çalarlarının əlavə olunmasına və ifaçıların peşəkarlığının genişlənməsinə xidmət edirdi.

1981-ci ildə Moskvada keçirilən XXVI qurultay çərçivəsində ansamblın çıxışı dahi bəstəkar və dirijor Niyazinin rəhbərlik etdiyi simfonik orkestrin müşayiəti ilə

oldu. Görkəmli balet ustası Qəhrəman Nəsirovun bəstəkar Aqşin Əlizadənin "Şənlik süitası" əsasında hazırladığı "Bayram süitası" (7) kompozisiyası məhz burada təqdim edildi. Milli simfonik musiqi ilə peşəkar xoreoqrafiyanın sintezindən yaranan bu əsər – tamaşaçılar və sənətsevərlər tərəfindən böyük maraqla qarşılandı.



Azərbaycan Dövlət Rəqs Ansamblı. İstanbul şəhəri, 2024-cü il.
28 may Müstəqillik Gününə həsr olunmuş konsert



Azərbaycan Dövlət Rəqs Ansamblı. Çelyabinsk şəhəri, 2024-cü il.
"Sineqorye" XIV Beynəlxalq Milli Mədəniyyətlər Festivalı

1982-ci ildən etibarən Azərbaycan Dövlət Rəqs Ansamblının fəaliyyətində yeni mərhələ başlandı. Bu dövrdə kollektivin bədii rəhbərliyi Azərbaycan Respublikasının Xalq artisti Afaq Məlikovaya tapşırıldı. O, bu vəzifə ilə yanaşı, üç il ərzində Alim Zeynalovla birlikdə repetitorluq fəaliyyətini də davam etdirərək, ifaçıların texniki hazırlığının yüksəldilməsinə birbaşa rəhbərlik etmişdir. A.Məlikovanın sənət fəlsəfəsi və peşəkar üslubu möhkəm pedaqoji məktəbə söykənir. O, Bakı Xoreoqrafiya Məktəbində Leyla Vəkilovadan dərs almış, ustadının sənət prinsiplərini mənimsəyərək öz fərdi yaradıcılığını inkişaf etdirmişdi. Sənətkarın peşəkar fəaliyyət xronologiyası zəngin təcrübəni əhatə edir. A.Məlikovanın peşəkar xoreoqrafiya sənətinə gəlişi 1960-cı illərin əvvəllərinə təsadüf edir. O, 1963-1974-cü illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti kimi fəaliyyət göstərmiş, 11 il ərzində bu kollektivin aparıcı solisti kimi çıxış edərək milli rəqs texnikasının incəliklərinə dərindən yiyələnmişdi. 1974-cü ildən 1982-ci ilə kimi fəaliyyətini Azərbaycan Dövlət Rəqs Ansamblında davam etdirmişdi. Bu dövr onun həm ifaçı kimi yetkinləşdiyi, həm də pedaqoji potensialının üzə çıxdığı mərhələdir. 1978-ci ildə sənətdə qazandığı yüksək nailiyyətlərə görə “Xalq artisti” fəxri adına layiq görülmüşdür. Həm solist, həm də bədii rəhbər və pedaqoq kimi fəaliyyət göstərən A.Məlikova, Azərbaycan xoreoqrafiya sənətini dünyanın ən mötəbər səhnələrində uğurla təmsil etmişdir. Onun rəhbərliyi dövründə Azərbaycan mədəniyyəti Türkiyə, Almaniya, Portuqaliya, Polşa, İngiltərə, Fransa, Kanada və İspaniya kimi ölkələrdə yüksək səviyyədə təmsil olunmuşdu. Onun ansambla rəhbərliyi dövründə kollektivin repertuarı daha da müasirləşmiş, milli rəqs elementləri akademik dəqiqliklə sintez edilərək yeni bədii formalar qazanmışdır.

A.Məlikovanın fəaliyyəti təkcə səhnə çıxışları ilə məhdudlaşmırdı, o, eyni zamanda gənc kadrların yetişdirilməsində pedaqoq kimi mühüm rol oynayırdı (4). Afaq xanımın sənət fəaliyyəti hər zaman dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. İfaçılıq sənətindəki uğurlarına görə 1975-ci ildə Azərbaycan SSR-in Əməkdar artisti, cəmi üç il sonra, 1978-ci ildə isə Azərbaycan SSR-in Xalq artisti fəxri adlarına layiq görülmüşdür. Azərbaycan mədəniyyətinin inkişafındakı müstəsna xidmətlərinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şöhrət” (2001) və “Şərəf” (2017) ordenləri ilə təltif olunmuşdur. Bu mükafatlar onun həm ifaçı, həm də bədii rəhbər kimi kollektivin simasını formalaşdırmasındakı rolunun təsdiqidir. A.Məlikovanın zəngin sənət dünyasını, xoreoqrafik fəlsəfəsini və ansamblın tarixindəki rolunu geniş auditoriyaya çatdırmaq məqsədilə 2017-ci ildə “Rəqs dünyam mənim” adlı qısametrajlı sənədli televiziya filmi ərsəyə gəlmişdir. Film sənətkarın həyat yoluna işıq tutmaqla yanaşı, Azərbaycan peşəkar rəqs sənətinin tədqiqi üçün də mühüm audiovizual mənbə hesab olunur.

Azərbaycan Dövlət Rəqs Ansamblının 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərindəki fəaliyyəti kollektivin peşəkarlıq səviyyəsinin dövlət tərəfindən qiymətləndirilməsi ilə əlamətdardır. Yüksək ifaçılıq məharətinə və mədəniyyət

sahəsindəki xidmətlərinə görə ansambl 1989-cu ildə Lenin Komsomolu Mükafatı ilə təltif edilmişdir. Bu, kollektivin yaradıcılıq enerjisinin və uğurlu fəaliyyətinin bir göstəricisi idi. Ansamblın yaradılmasının 20 illik yubileyi münasibətilə, 1991-ci ildə Azərbaycan xoreoqrafiya sənətinin inkişafındakı müstəsna xidmətlərinə görə kollektivə "Əməkdar kollektiv" fəxri adı verilmişdir. Yarandığı gündən etibarən dinamik inkişaf yolu keçən Azərbaycan Dövlət Rəqs Ansamblı, bu gün milli xoreoqrafiya sənətimizin qlobal miqyasda əsas təmsilçisi hesab olunur. Ansamblın fəaliyyəti təkcə ifaçılıqla məhdudlaşmır, həm də qədim rəqs ənənələrinin elmi-bədii bərpası və müasir səhnə estetikasına uyğunlaşdırılması missiyasını daşıyır. Təsis olunduğu dövrdən etibarən davamlı inkişaf yolu keçən Azərbaycan Dövlət Rəqs Ansamblı hər il öz yaradıcılıq nailiyyətlərini daha da zənginləşdirir. Kollektiv müxtəlif beynəlxalq festivallarda, nüfuzlu müsabiqələrdə və dövlət əhəmiyyətli konsert proqramlarında ölkəmizi müvəffəqiyyətlə təmsil edərək, bu gün də uğurla fəaliyyətini davam etdirir. Ansamblın repertuarında istər kütləvi kollektiv çıxışlar, istərsə də ayrı-ayrı qadın və kişi rəqsləri rəngarəng və dolğunluğu ilə seçilir. Tam əminliklə qeyd etmək olar ki, respublikanın mədəni həyatında baş verən mühüm hadisələrin və dövlət tədbirlərinin əksəriyyəti bu peşəkar kollektivin iştirakı olmadan təsəvvür edilə bilməz. Ansambl həm yerli, həm də dünya səhnələrində milli rəqs sənətimizi layiqincə təbliğ edən əsas yaradıcılıq mərkəzlərdən biridir. Kollektivin repertuarı öz koloriti, estetik zənginliyi və kompozisiya quruluşunun mürəkkəbliyi ilə fərqlənən silsilə nümunələrdən ibarətdir. Buraya "Azərbaycan" və "Vətən" süitaları, "İlk bahar", "Qaytağı", "Qazağı", "Uzundərə" kimi klassik nümunələr, eləcə də xalq rəqslərimizin əsasında hazırlanan "Koroğlu" birpərdəli milli baleti daxildir [5]. Bundan əlavə ansambl illər ərzində formalaşmış proqramlarında Xalq artisti Rüfət Xəlilzadənin bədii rəhbərliyi ilə "Şələqoy", "İgidlər", "Lirik rəqs", "Çobanlar", "Yallı", "Qızlar", "Gənclik", "Bəy", "Qaval", "Tərəkəmə", "Ağ çiçəyim", "Naz eləmə" və "Cəngi" kimi etnoqrafik və bədii cəhətdən dəyərli rəqsləri uğurla ifa edir.

Məlumat üçün qeyd edək ki, "*Fərhad Vəliyev 1986-1988-ci illərdə Dövlət Rəqs ansamblı ilə R.Hacıyevin "Qaytağı" musiqisi üzərində rəqs qurmuşdur. Xanlar Bəşirov rəhbəri olduğu "Azərbaycan qartalları" rəqs ansamblının ifası üçün 2009-cu ildə "Azərbaycan süitası" adlı rəqs kompozisiyası qurarkən istifadə etdiyi beş musiqidən biri də Rəşid Əfəndiyevin "Qaytağı"sı olmuşdur. Həmin süita hazırda da repertuardadır. Qəhrəman Nəsirov 1997-ci ildə Tofiq Quluyevin 80 illik yubileyi ilə bağlı bəstəkarın "Qaytağı" əsərinə rəqs quruluşu vermişdir*" (Rəhmanlı, 2017: 44).

Sadalanan hər bir rəqs nümunəsi Azərbaycanın çoxəsrlik tarixini, incəsənət ənənələrini və zəngin mədəni irsini özündə ehtiva edir. Bu kompozisiyalarda milli ruhun və qədim rəqs ənənələrinin qorunub saxlanılması aydın şəkildə hiss olunur. Ansamblın proqramında yer alan əsərlər eyni zamanda Azərbaycan xalqının rəqs sənətinin köklərinin nə qədər qədim olduğunu elmi və bədii şəkildə sübuta

yetirir. Azərbaycanın xalq rəqsləri 100-dən çox növü özündə birləşdirərək, zənginliyi, koloriti və struktur bütövlüyü ilə dünya xoreoqrafiya sənətində xüsusi yer tutur. Rəqs xalqımızın mədəni incisi olmaqla yanaşı, həm də tarixi köklərimizi, qədim dövrlərdən gələn milli kimliyimizi və gələcəyə yönəlmiş yaradıcılıq potensialımızı birləşdirən mənəvi bir körpü rolunu oynayır. İstər müasir səhnələrdə mütəmadi ifa olunan, istərsə də arxivlərdə qorunan qədim rəqs nümunələrimizdə xalqın soykökü, tarixi yaddaşı və adət-ənənələri yaşayır. “Vağzalı”, “Qazağı”, “Cəngi”, “Uzundərə”, “Lalə”, “Qızılgül”, “İnnabı”, “Azərbaycan”, “Toy rəqsi”, “Heyvagülü”, “Turacı”, “Tərəkəmə”, “Şalaxo”, “Qaytağı”, “Qoçəli”, “Yallı” kimi onlarla rəqs növü bizim milliliyimizin vizit kartıdır. Bu sənət incilərini qorumaq, dərindən öyrənmək, beynəlxalq müstəvidə təbliğ etmək və orijinallığını pozmadan gələcək nəsillərə ötürmək mədəniyyət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Bu kontekstdə Azərbaycan Dövlət Rəqs Ansamblının çiyinlərinə böyük yük düşür. Ansambl sadəcə bir ifaçılıq kollektivi deyil, həm də milli rəqs irsinin qoruyucusu və elmi-praktiki ötürücüsü kimi müstəsna əhəmiyyət kəsb edir. Azərbaycan Dövlət Rəqs Ansamblının bugünki yüksək dinamikalı fəaliyyəti milli xoreoqrafiya sənətimizin həm ölkə daxilində, həm də dünya miqyasında uğurlu təmsilçiliyinə zəmin yaradır. Ansambl tərəfindən yüksək peşəkarlıqla ifa olunan rəqs nümunələri və xoreoqrafik kompozisiyalar Azərbaycanın zəngin folklorunun və milli kimliyinin dünyada geniş təbliğ olunmasında müstəsna rol oynayır.



Azərbaycan Dövlət Rəqs Ansamblının kollektivi və bədii rəhbəri
Xalq artisti Rüfət Xəlilzadə

Kollektivin geniş coğrafiyanı əhatə edən qastrol səfərləri Azərbaycan mədəniyyətinin beynəlxalq səviyyədə tanınması üçün mühüm platformadır. Ansambl öz repertuarında yer alan **"**Koroğlu" xoreoqrafiyası, "Qaytağı", "Qazağı", "Uzundərə" rəqsləri, habelə monumental "Azərbaycan" və "Vətən" süitaları ilə dünyanın ən nüfuzlu səhnələrində çıxış etmişdir. Bu siyahıya Fransa, Rusiya, Türkiyə, Hindistan, Qazaxıstan, Özbəkistan, Mərakeş, İspaniya, Norveç, Avstriya, Albaniya, Çin, Cənubi Koreya və ABŞ kimi böyük mədəniyyət mərkəzləri daxildir. Ansamblın çoxillik fəaliyyəti ərzində formalaşdırdığı zəngin konsert proqramları janr və mövzu rəngarəngliyi ilə seçilir. Kollektivin yaradıcılıq yolunda "Şələqoy", "İgidlər", "Lirik rəqs", "Çobanlar", "Yallı", "Qızlar", "Gənclik" (6), "Bəy", "Qaval", "Tərəkəmə", "Ağ çiçəyim", "Naz eləmə" və "Cəngi" kimi klassik və etnoqrafik rəqslər xüsusi yer tutur. Bu ifalar nəinki texniki mükəmməlliyi, həm də hər bir rəqsin daxilində daşıdığı milli ruhu və bədii estetiklini tamaşaçıya tam dolğunluğu ilə çatdırır.

Beləliklə, bu tədqiqat işində Azərbaycan Dövlət Rəqs Ansamblının yaranma tarixini və sonrakı illərdəki inkişaf mərhələlərinə nəzər yetirilmiş, ansamblın fəaliyyəti təkcə xronoloji ardıcıllıqla deyil, həm də milli xoreoqrafiya məktəbinin peşəkarlaşması və akademik səhnəyə inteqrasiyası kontekstində araşdırılmışdır. Ansamblın keçdiyi yaradıcılıq yolu, müxtəlif illərdə fəaliyyəti və səhnə estetikası haqqında əldə olunan məlumatlar milli rəqs tariximizin elmi bazasını zənginləşdirir.

Bu gün Azərbaycan Dövlət Rəqs Ansamblının yaradıcı heyətinin əksər hissəsini Bakı Xoreoqrafiya Məktəbinin, hazırda isə Bakı Xoreoqrafiya Akademiyasının məzunları və yetirmələri təşkil edir. Bu mənada, Bakı Xoreoqrafiya Akademiyası ölkədə xoreoqrafiya sənəti üzrə yüksək ixtisaslı kadrlar hazırlayan yeganə və unikal təhsil müəssisəsi kimi əhəmiyyət kəsb edir. Həmçinin, məzun olduqdan sonra Azərbaycan Dövlət Rəqs Ansamblında ifaçı kimi fəaliyyət göstərənlər arasında Akademiyaya pedaqoji fəaliyyətə dəvət olunan gənclər də vardır. Vaxtilə Dövlət Rəqs Ansamblının parlaq simaları olmuş, hazırda isə pedaqoji fəaliyyətlərini Bakı Xoreoqrafiya Akademiyasında uğurla davam etdirən tanınmış rəqs fədailərinin də adlarını qeyd etmək zəruridir. Bu ustadlar sırasına Xalq artistləri Yusif Qasımov, Təranə Muradova, Cəmilə Bayramova, habelə Əməkdar artistlər Səbinə Qasımova, Eteri Cəfərova, Sənan Hüseynli, Gülməmməd Şahverdiyev, Kamila Əliyeva və başqaları daxildir. Onların fəaliyyəti Azərbaycan xoreoqrafiya məktəbinin akademik bazasının möhkəmlənməsində və milli rəqsimizin qorunmasında həlledici rol oynayır. Azərbaycan Dövlət Rəqs Ansamblının yarandığı gündən bu günə qədər keçdiyi yaradıcılıq yoluna nəzər saldıqda belə nəticəyə gəlinir ki, bu kollektiv təkcə bir sənət ocağı deyil, həm də milli xoreoqrafiya irsimizin qorunub saxlanıldığı və inkişaf etdirildiyi akademik bir məkana çevrilmişdir. Azərbaycan Dövlət Rəqs Ansamblı özünün gələcək nəsil xoreoqraflar və baletmeysterlər üçün əvəzsiz bir baza rolunu oynayır.

ƏDƏBİYYAT:

1. Həsənov, K.N. Qədim Azərbaycan rəqsləri. Bakı: İşıq, 1983, 130 s.
2. Kazımzadə, A. Mədəniyyət. Rəqsimizin korifeyi. // “Mədəniyyət” qəzeti. Bakı, 2010, 5 fevral. S.10.
   URL: https://anl.az/down/meqale/medeniyyet/2010/fevral/105759.htm
3. Rəhmanlı, Ə. Azərbaycan rəqslərinin səhnə təcəssümü. // “Konservatoriya” jurnalı. № 4, 2017. s. 44. URL: http://konservatoriya.az/?p=3569
4. Süzən qızlar. Afaq Məlikova. Azərbaycan Dövlət Rəqs ansamblı.
   URL:https://www.youtube.com/watch?v=2p4zuTqFxY4&list=RD2p4zuTqFxY4&start_radio=1
5. National ballet Azerbaijani “Koroglu”
   URL**:**
   https://www.youtube.com/watch?v=JxCB1bwN3ls&list=RDJxCB1bwN3ls&rco=1
6. Azərbaycan dövlət rəqs ansamblı Gənclik Rəqsi
   URL:https://www.youtube.com/watch?v=20wF1JoPHQw&list=RD20wF1JoPHQw&star
7. Aqşın Əlizadə, Şənlik rəqsi Акшин Ализаде Азербайджанский танец. Хореограф Гахраман Насиров.
   URL:https://www.youtube.com/watch?v=kLSweS8aeBk&list=RDkLSweS8aeBk&start radio=1